# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Qəbələ rayon əhalisinə

# TƏBRİKİ

**Əziz və hörmətli qəbələlilər!**

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə bu əlamətdar günlərlə əlaqədar ən xoş arzularımı bildirirəm!

Artıq 2017-ci il tarixə qovuşur. Qeyd edilməlidir ki, 2017-ci il rayonumuzun hərtərəfli inkişafı üçün uğurlu, yaddaqalan il olmuş, qarşıya qoyulan bütün vəzifələr müvəffəqiyyətlə icra edilmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi və uzaqgörən siyasəti sayəsində həyata keçirilən geniş miqyaslı islahatlar, yeni infrastruktur layihələri, aparılan tikinti-quruculuq, abadlıq və bərpa işləri, hərtərəfli sürətli iqtisadi tərəqqi hər birimizdə fərəh və qurur hissi doğurur. İldən-ilə artan uğurlarımız, ölkəmizin sürətli inkişafı ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttin ölkə başçısı tərəfindən böyük məharətlə davam etdirilməsinin məntiqi nəticəsidir.

Əvvəlki illərdə olduğu kimi, 2017-ci il də bütün Azərbaycan üçün, o cümlədən Qəbələ rayonu üçün əlamətdar il olmuşdur.

Qəbələdə aparılan geniş yenidənqurma, abadlıq işləri, turizm infrastrukturunun genişləndirilməsi rayonun simasını tamamilə dəyişmişdir. Qəbələ nəinki ölkəmizdə, eləcə də dünyada artıq unikal turizm məkanı kimi şöhrət qazanmaqdadır. Bütün bunlar rayonda həyat səviyyəsinin yüksəlməsinə xidmət etməklə yanaşı, həm də rayonun əhalisinə mənəvi rahatlıq gətirir.

Dünyanın mədəniyyət mərkəzinə çevrilməkdə olan Qəbələnin son illər beynəlxalq forumlara, musiqi festivallarına, təsviri sənət sərgilərinə və idman yarışlarına ev sahibliyi etməsi rayonumuzun qlobal miqyasda tanınmasını təmin edir.

Möhtərəm Prezidentimizin rayonumuza göstərdiyi qayğı və diqqət, aparılan sistemli iş, inkişafın yeni hədəflərinin müəyyən edilməsi onu deməyə əsas verir ki, 2018-ci ildə nailiyyətlərimiz daha da artacaq, respublikamızın füsunkar bölgəsi olan Qəbələdə abadlıq işləri davam etdiriləcək, əhalinin rifahı yüksələcəkdir.

**Əziz qəbələlilər!**

Sizə rayonumuzun sürətli sosial-iqtisadi inkişafı naminə qarşımızda duran mühüm vəzifələrin həyata keçirilməsində yeni-yeni uğurlar arzulayır, sizi bir daha Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edir, hər birinizə uzun ömür, cansağlığı, ailələrinizə xoş əhval-ruhiyyə, səadət, əmin-amanlıq və firavanlıq diləyirəm.

**Səbuhi Abdullayev,**
**Qəbələ Rayon İcra**
**Hakimiyyətinin başçısı.**
*29 dekabr 2017-ci il.*

# Təntənəli tədbir keçirilib

***Mədəniyyət və Turizm Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşəbbüsü ilə dekabrın 26-da Heydər Əliyev Mərkəzində müəssisənin 2017-ci ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş təntənəli tədbir keçirilib.***

Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Mədəniyyət və Turizm Nazirliyinin İsmayıllı Regional Turizm və Mədəniyyət İdarəsinin rəisi Pərviz İskəndərli, Mədəniyyətşünaslıq üzrə Respublika Elmi-Metodiki Mərkəzinin direktoru Asif Usubəliyev, Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin Ümumrusiya Metodiki Şurasının sədr müavini Andrey Belyayev, Qobustan, Şamaxı, İsmayıllı, Ağsu rayonlarının təmsilçiləri və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli liderin mərkəzdəki büstü önünə gül dəstələri düzüb.

Heydər Əliyev Mərkəzinin direktoru Zərxanım Ağayeva tədbiri açaraq 2017-ci ildə mərkəzdə görülən işlər barədə hesabat verib.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Heydər Əliyevin Azərbaycan tarixinin yetişdirdiyi ən nadir simalardan, türk dünyasının və ümumən sivil dünyanın qüdrətli şəxsiyyətlərindən biri, Azərbaycan xalqının ümummilli lideri kimi ən ali keyfiyyətlərə malik şəxsiyyət olduğunu bildirib.





Heydər Əliyevin uzaqgörən siyasəti və yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanın bu gün dünya miqyasında sivil, hüquqi, demokratik, dünyəvi dövlət kimi tanındığını qeyd edən Səbuhi Abdullayev ulu öndərin ölkə vətəndaşlarını vahid ideya, bir məqsəd ətrafında birləşdirdiyini, bunun üçün doğru olaraq xalqın milli-mənəvi varlığını, onun kimliyini əks etdirən təfəkkür, adət və inanclar sistemi olan "Azərbaycançılıq" ideologiyasını seçdiyini diqqətə çatdırıb.

RİH başçısı rayonumuzda fəaliyyət göstərən Heydər Əliyev Mərkəzinin də bu gün ulu öndərin siyasi irsinin, ideoloji konsepsiyasının təbliği, onun unikal dövlət quruculuğu təcrübəsinin gənc nəslə çatdırılması, ümummilli liderin Azərbaycanşünaslıqla bağlı məlumat bazasının mühafizə edilməsi missiyasını həyata keçirdiyini vurğulayıb.

Mərkəzdə milli mədəniyyətimizlə, incəsənətimizlə, tariximizlə, təhsilimizlə, iqtisadi inkişafımızla bağlı müxtəlif maraqlı tədbirlərin keçirildiyini deyən natiq bundan sonra da ümummilli liderin siyasi irsinin, ictimai-fəlsəfi fikirlərinin, onun ideyalarının, azərbaycançılıq məfkurəsinin təbliğ olunması, ulu öndər tərəfindən əsası qoyulan və bizə miras qalan dövlətçilik, vətənpərvərlik ənənələrinin gənc nəslə çatdırılması və aşılanması istiqamətində bütün layihələrin həyata keçirilməsini daha fəallıqla təmin edəcəyinə əminliyini bildirib.

Regional Turizm və Mədəniyyət Şöbəsinin rəisi Pərviz İskəndərli çıxışında Heydər Əliyev Mərkəzində ümummilli lideri siyasi fəaliyyəti ilə bağlı tarixi əşyaların, fotoşəkillərin, müxtəlif sənədlərin və maddi mədəniyyət nümunələrinin mühafizəsi, öyrənilməsi, kütləvi nümayişi və təbliği istiqamətində çox böyük işlər görüldüyünü və ulu öndərin siyasi irsinin tədqiq olunduğu, qorunub saxlanıldığı müqəddəs bir məbəd olduğunu qeyd edib.

Pərviz İskəndərli rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Fəxri Fərmanı ilə təltif edildiyini bildirərək, həmin mükafatı ona təqdim edib. Eləcə də tədbirdə Respublika Elmi-Metodiki Mərkəzinin direktoru Asif Usubəliyev, Ağsu Rayon Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Tacızadə və digərləri çıxış edib.

Mərasimdə Heydər Əliyevin ideyalarının həyata keçirilməsi sahəsindəki fəaliyyətlərinə görə bir qrup gənc Mədəniyyət Nazirliyinin Fəxri Fərmanları ilə təltif olunub.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Onkoloji müayinələr təşkil olunub

***Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB), Səhiyyə Nazirliyi və Milli Onkologiya Mərkəzinin (MOM) birgə təşkilatçılığı ilə Qəbələ rayonunda ödənişsiz onkoloji müayinələr keçirilib.***



Profilaktik onkoloji müayinələri Milli Onkologiya Mərkəzinin baş direktorunun birinci müavini, professor Əziz Əliyevin başçılıq etdiyi 12 nəfərlik həkim briqadası aparıb. Müayinələr müasir tibbi-texniki avadanlıq və vasitələrlə təchiz olunmuş Səyyar Diaqnostik Kompleksdə, həmçinin Qəbələ Rayon Mərkəzi Xəstəxanasında həyata keçirilib.

Layihə çərçivəsində 300-dən çox region sakini qalxanabənzər vəzi, boyun şişləri, ultrasəs, süd vəzlərinin mammoqrafiyası və digər müayinələrə cəlb olunub. Xəstəlik riski olanlar tam müayinələrdən keçmək və müalicə almaq üçün Milli Onkologiya Mərkəzinə dəvət edilib, digər patologiya aşkar olunan xəstələr müvafiq profilli xəstəxanalara göndərilib, eləcə də yerində məsləhətlər verilib.

Layihənin məqsədi skrininq, şişönü və şiş xəstəliklərini erkən müayinədə aşkar edərək vaxtında dəqiq müayinə və müalicəsini aparmaqdır.

RİİB nümayəndələri və könüllüləri müayinələrə ehtiyacı olan şəxslərin layihədə iştirakını təşkil ediblər.

**"Qəbələ"**

## *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2018-ci İLİN YANVAR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Zirik kəndi | 09.01.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Kiçik Pirəli kəndi | 16.01.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Çarxana kəndi | 23.01.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Məmmədağalı kəndi | 30.01.2018 | Kənd məktəbi, saat $15^{00}$ |

Qəbula təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri dəvət olunurlar.